**09.05.2023: xəbər**

**Students of Khazar University in Erasmus+ student exchange program**
**I have reached a new level in my education**

I am the 4th year student of the School of Humanities, Education and Social Sciences of Khazar University, majoring in English language teaching.
I studied for one semester at Istanbul Aydın University in Türkiye within the framework of the Erasmus+ Student Exchange Program. The main part of my exchange program was teaching experience.
As it is known, all 4th year students majoring in the teaching are required to do an internship in their profession for 2 semesters. The school where I had an internship was "CND Schools". I had the opportunity to hold and observe classes there. Since English is the main language in "CND schools", most of the students were foreigners.
One of the great things about my exchange program was that my Pakistani friend, whom I had known for years online, was also a student at Istanbul Aydın University. My friend taught me Urdu and I taught him Azerbaijani.
I also took part in the event “International Culinary Day” organized by the program. Everyone present had to prepare their own traditional dishes. There we not only got acquainted with various dishes, but also learned about other countries.
All in all, in just five months, Erasmus gave me a great experience and a lot of memories. Thanks to this program, I met students from many countries around the world, and also I have reached a new level in my education.
**Asmar Pashayeva**

**“Xəzər”in tələbələri Erasmus+ tələbə mübadilə proqramında**
**Təhsil səviyyəmdə yeni bir pilləyə yüksəldim**

Mən Xəzər Universitetinin Humanitar, təhsil və sosial elmlər fakültəsinin İngilis dili müəllimliyi ixtisası üzrə 4-cü kurs tələbəsiyəm.
Erasmus+ Tələbə Mübadilə Proqramı çərçivəsində Türkiyənin İstanbul Aydın Universitetində bir semestr ərzində təhsil almışam.
Mübadilə proqramımın əsasü hissəsi müəllimlik təcrübəsi idi. Məlum olduğu kimi, müəllimlik ixtisasında təhsil alan bütün 4-cü kurs tələbələrindən 2 semestr ərzində öz peşəsi üzrə təcrübə keçməsi tələb olunur. Mənim təcrübə keçdiyim məktəb

“CND okullari” idi. Orada həm dərs demək, həm də dərsləri müşahidə etmək imkanım oldu. “CND okullari”nda ingilis dili əsas dil olduğuna görə tələbələrin əksəriyyəti əcnəbi idi.
Mübadilə proqramımın gözəl tərəflərindən biri o idi ki, illərdir internet üzərindən tanıdığım pakistanlı dostum da İstanbul Aydın Universitetinin tələbəsi idi. Dostum mənə urdu dilini, mən isə ona Azərbaycan dilini öyrədirdim.
Proqramın təşkil etdiyi “Beynəlxalq Kulinariya Günü” adlı tədbirdə də iştirak etdim. Orada iştirak edən hər kəs öz ənənəvi yeməklərini hazırlamalı idi. Bu zaman biz müxtəlif yeməklərlə tanış olmaqla yanaşı, həmçinin, digər ölkələr haqqında da məlumatlar əldə etdik.
Ümumilikdə, cəmi beş ay ərzində Erasmus mənə böyük təcrübə və çoxlu xatirələr bəxş etdi. Bu proqram sayəsində həm dünyanın bir çox ölkəsindən olan tələbələrlə tanış oldum, həm də öz təhsil səviyyəmdə yeni bir pilləyə yüksəldim.
**Əsmər Paşayeva**












#BURSA